AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmri ilə təsdiq edilmişdir

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

İxtisasın şifri və adı: 7004005 - İqtisadiyyat

BAKI - 2025

AZƏRBAYCAN UNİVERSİTETİ

*Azərbaycan Universiteti Elmi şurasının*
*12.09.2025-ci il tarixli,*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

______________

*Rektor S.N. Əliyeva*

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

İxtisasın şifri və adı: 7004005 - İqtisadiyyat

İxtisalaşma:Turizmin iqtisadiyyatı

BAKI - 2025

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **7004005 - İqtisadiyyat** ixtisası, **Turizmin iqtisadiyyatı** ixtisaslaşması üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Magistratura səviyyəsinin ixtisas üzrə Təhsil Proqramının Çərçivə Sənədi", eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

**1.2.** Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

**1.3.** Təhsil proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.4.** Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun səriştələri

**2.1.** Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;

- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

**2.2.** Təhsil proqramının sonunda **7004005 - İqtisadiyyat** ixtisasının **Turizmin iqtisadiyyatı *ixtisaslaşması*** üzrə məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

- davamlı və dayanıqlı turizm strategiyalarını formalaşdırmaq;
- turizmdə rəqəmsal texnologiyaların tətbiqinə nəzarət etmək;
- turizm sahəsində resurslardan səmərəli istifadə vəziyyətini qiymətləndirmək;
- turizmdə dəyişikliklərin idarə olunmasına nəzarət etmək;
- turizmin iqtisadi artıma təsirini kvantitativ metodlarla qiymətləndirmək;
- turizm göstəricilərinin təhlili əsasında siyasət tədbirləri təklif etmək;

## 3. Təhsil proqramının strukturu

**3.1.** Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Turizmin iqtisadiyyatı | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

**3.2.** Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1,5 il) və ya 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti | |
|---|---|---|---|
| 1 | **Tədqiqat metodları**[1]<br>Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur. | 0 | 6 |
| 2 | **Akademik yazı və etika**<br>Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir. | 6 | 6 |

| | | | |
|---|---|---|---|
| 3 | **Tədqiqat analitikası**[1]<br>Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq (“Excel”, “SPSS”, “Stata”, “R”, “MAXQDA”, “Matlab”, “Python” və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin<br>əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur. | 0 | 6 |

| | | | |
|---|---|---|---|
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**[3]<br>ixtisaslaşmadan asılı olaraq buraya daxil edilən fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında öz əksini tapır. [4] | 0 | 54 |
| 4 | **Turizmin iqtisadiyyatı nəzəriyyə və tətbiqlər**<br>“Turizmin iqtisadiyyatı: nəzəriyyə və tətbiqlər” fənni magistrantlara turizm sektorunun müasir iqtisadi sistemdəki yerini, funksiyalarını və iqtisadi inkişaf prosesinə təsir mexanizmlərini dərindən öyrədir. Fənn turizm iqtisadiyyatının nəzəri əsaslarını, turizm bazarının formalaşma prinsiplərini, turizm məhsulunun istehsal və istehlak xüsusiyyətlərini, turizmin makroiqtisadi göstəricilərə (ÜDM, məşğulluq, investisiya, ixrac) təsirini əhatə edir.<br>Fənnin məqsədi magistrantlarda turizmin iqtisadi təhlil və idarəetmə sahəsində yüksək səviyyəli nəzəri bilik və praktik bacarıqlar formalaşdırmaqdır. Fənn magistrantların elmi-tədqiqat, analitik və idarəetmə kompetensiyalarını inkişaf etdirməklə, onları turizm iqtisadiyyatı sahəsində müasir elmi yanaşmalara və praktik qərar qəbuletmə proseslərinə hazırlayır. | 0 | 6 |
| 5 | **Turizm planlaşdırılması və turizm siyasəti**<br>Fənnin məqsədi magistr tələbələrinə turizm sektorunda planlaşdırma və dövlət siyasətinin elmi-nəzəri əsaslarını, prinsiplərini və praktik tətbiq üsullarını öyrətməkdir.<br>Tələbələrə turizm siyasətinin hazırlanması, həyata keçirilməsi, idarə edilməsi və qiymətləndirilməsi mexanizmləri haqqında biliklər qazandırmaq, həmçinin turizm planlaşdırılmasında strateji yanaşma, regional inkişaf və dayanıqlı turizm prinsiplərini mənimsətmək məqsəd qoyulur.<br>Bu fənn turizmin idarə olunmasında planlaşdırma və siyasətin rolunu, turizm sektorunun dövlət, regional və özəl səviyyədə tənzimlənməsi mexanizmlərini əhatə edir. | 0 | 6 |
| 6 | **Turizm marketinqi**<br>Fənnin məqsədi magistr tələbələrinə turizm sənayesində marketinq nəzəriyyələrinin və strategiyalarının tətbiq prinsiplərini öyrətməkdir.<br>Fənn tələbələrdə turizm məhsulunun formalaşdırılması, bazarın seqmentləşdirilməsi, müştəri davranışının təhlili, rəqəmsal marketinq və brend idarəetməsi sahəsində elmi-nəzəri biliklər və praktiki bacarıqlar formalaşdırır.<br>Eyni zamanda, tələbələr turizm müəssisələrinin marketinq strategiyalarını hazırlamaq, rəqabət mühitini təhlil etmək və effektiv kommunikasiya alətlərindən istifadə etməyi öyrənirlər.<br>“Turizm marketinqi” fənni turizm sahəsində marketinq konsepsiyalarının, strategiyalarının və tətbiq mexanizmlərinin öyrənilməsini əhatə edir. | 0 | 6 |
| 7 | **Turizm və iqtisadi  artım ,inkişaf**<br>Fənnin əsas məzmunu turizmin iqtisadiyyatın mühüm tərkib hissəsi kimi | 0 | 6 |

| | | | |
|---|---|---|---|
| | ölkənin sosial-iqtisadi inkişafında oynadığı rolu, iqtisadi artım proseslərinə təsir mexanizmlərini və turizm sektorunun dayanıqlı inkişaf potensialını öyrənir. Fənn çərçivəsində turizmin milli gəlirə, investisiyalara, məşğulluğa, regionların balanslı inkişafına və ixrac gəlirlərinin artımına təsiri təhlil edilir. Eyni zamanda, turizmin rəqəmsallaşması, innovativ inkişaf istiqamətləri, beynəlxalq iqtisadi inteqrasiya və dövlətin turizm siyasətinin iqtisadi artım strategiyalarına təsiri məsələləri araşdırılır.<br>Fənnin məqsədi magistrantlarda turizmin iqtisadi artım və inkişaf proseslərində rolu barədə nəzəri biliklər və analitik düşüncə qabiliyyəti formalaşdırmaq, bu sahədə elmi tədqiqat aparmaq bacarıqlarını inkişaf etdirməkdir. | | |
| 8 | **Turizmdə investisiyalar**<br>Fənnin əsas məzmunu turizmin milli iqtisadiyyatın inkişafında və iqtisadi artım proseslərində oynadığı rolun elmi-nəzəri və praktiki əsaslarını öyrənməyə yönəlmişdir. Fənn çərçivəsində turizm sektorunun iqtisadiyyatın müxtəlif sahələrinə təsiri, turizmin milli gəlirin formalaşmasında, məşğulluğun artırılmasında, regional inkişafın stimullaşdırılmasında və xarici investisiyaların cəlb olunmasında rolu təhlil edilir.<br>Fənn həmçinin turizmin rəqəmsal transformasiyası, innovativ inkişaf istiqamətləri, ekoloji və sosial təsirləri, dayanıqlı turizm siyasətinin formalaşdırılması və dövlətin iqtisadi artım strategiyaları ilə qarşılıqlı əlaqələrini əhatə edir.<br>Fənnin əsas məqsədi magistrantlarda turizmin iqtisadi artım və inkişaf proseslərindəki əhəmiyyətinə dair nəzəri bilik və analitik təfəkkür formalaşdırmaq, həmçinin bu bilikləri praktik tədqiqat və idarəetmə proseslərində tətbiq etmə bacarığını inkişaf etdirməkdir. | 0 | 6 |
| 9 | **Davamlı turizm strategiyaları**<br>Fənni məzmunu turizmin iqtisadi, ekoloji və sosial aspektlərinin tarazlaşdırılmış inkişafını təmin edən elmi-nəzəri və praktiki yanaşmaları öyrədir. Fənn çərçivəsində davamlı turizm konsepsiyası, onun prinsipləri, məqsədləri və həyata keçirilmə mexanizmləri araşdırılır.<br>Tədris prosesində turizmin ətraf mühitə təsiri, təbii və mədəni resursların qorunması, yerli icmaların rifahının təmin edilməsi, ekoturizmin inkişafı, iqlim dəyişikliklərinə uyğunlaşma strategiyaları və məsuliyyətli turizm idarəetməsi kimi mövzular öyrənilir. Eyni zamanda fənn beynəlxalq davamlılıq standartlarını, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG-lər) ilə uyğun turizm siyasətlərini və strateji planlaşdırma metodlarını əhatə edir<br>Fənnin məqsədi magistrantlarda turizmin davamlı inkişafı üçün strateji planlaşdırma bacarıqları formalaşdırmaq, turizm siyasətlərini ekoloji, sosial və iqtisadi baxımdan dəyərləndirmə və tətbiqetmə qabiliyyətini inkişaf etdirməkdir. | 0 | 6 |
| 10 | **Beynəlxalq turizm və rəqabətlilik**<br>Fənnin məzmunu beynəlxalq turizm bazarının formalaşma qanunauyğunluqlarını, qlobal turizm axınlarının iqtisadi və sosial təsirlərini, eləcə də ölkələrin və regionların turizm rəqabət qabiliyyətinin artırılması yollarını öyrənir.<br>Fənn çərçivəsində beynəlxalq turizm siyasətləri, qlobal turizm təşkilatlarının (UNWTO, WTTC, OECD və s.) fəaliyyəti, turizm bazarlarında rəqabət mühiti, brendinq, imic formalaşdırılması və innovativ turizm strategiyaları təhlil olunur. Eyni zamanda, ölkələrin beynəlxalq turizm bazarına inteqrasiyası, rəqabət üstünlüyü modelləri, turizmin beynəlxalq ticarət və iqtisadi əməkdaşlığa təsiri, həmçinin rəqəmsallaşma və dayanıqlılıq kontekstində turizm rəqabətliliyinin yüksəldilməsi məsələləri araşdırılır.<br>Fənnin əsas məqsədi magistrantlarda beynəlxalq turizm bazarının fəaliyyət mexanizmləri və rəqabətlilik amilləri haqqında dərin bilik və analitik düşüncə bacarıqları formalaşdırmaq, həmçinin turizm sektorunun beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin artırılması üzrə strategiyalar hazırlamaq | | |

| | | | |
|---|---|---|---|
| | bacarığını inkişaf etdirməkdir. | | |
| 11 | **Turizmdə rəqəmsal texnologiyalar**<br>Fənnin məzmunu müasir informasiya-kommunikasiya texnologiyalarının (İKT) turizm sənayesində tətbiqi, rəqəmsal transformasiya prosesləri və onların idarəetmə, marketinq, xidmət keyfiyyəti və müştəri təcrübəsinə təsirini öyrənir.<br>Fənn çərçivəsində süni intellekt, böyük verilənlər (Big Data), bulud texnologiyaları, mobil tətbiqlər, onlayn rezervasiya sistemləri, sosial media marketinqi, blokçeyn və digər rəqəmsal həllərin turizm sektorunda rolu təhlil edilir.Bundan əlavə, turizm müəssisələrində rəqəmsal idarəetmə modelləri, elektron turizm (e-turizm), virtual və artırılmış reallıq texnologiyalarının tətbiqi, rəqəmsal təhlükəsizlik və müasir texnologiyaların dayanıqlı turizm inkişafına təsiri kimi məsələlər də öyrənilir.<br>Fənnin əsas məqsədi magistrantlarda turizm sahəsində rəqəmsal texnologiyalardan səmərəli istifadə bacarıqları formalaşdırmaq, rəqəmsal transformasiyanın idarəetmə və xidmət sistemlərinə inteqrasiyasını dəyərləndirmə qabiliyyətini inkişaf etdirməkdir. | 0 | 6 |
| 12 | **Turizm resuslarının idarə edilməsi**<br>Fənnin mızmunui turizm sahəsində təbii, mədəni, tarixi və sosial resursların səmərəli idarə olunması prinsiplərini, metodlarını və strategiyalarını öyrədir. Fənn çərçivəsində turizm resurslarının növləri, onların iqtisadi və sosial əhəmiyyəti, istifadəsi və qorunması məsələləri araşdırılır.<br>Tədris zamanı resursların inventarlaşdırılması və qiymətləndirilməsi, resurs potensialının inkişaf istiqamətləri, turizm marşrutlarının planlaşdırılması, ekoturizm və dayanıqlı idarəetmə mexanizmləri öyrənilir.<br>Eyni zamanda, turizm resurslarının idarə edilməsində müasir texnologiyaların (rəqəmsal xəritələşdirmə, GIS, Big Data) rolu, dövlət və özəl sektor əməkdaşlığı, yerli icmaların iştirakı və resursların qorunması siyasətləri də təhlil olunur.<br>Fənnin əsas məqsədi magistrantlarda turizm resurslarının kompleks şəkildə idarə olunması, qorunması və dayanıqlı istifadəsinə dair nəzəri biliklər və praktik bacarıqlar formalaşdırmaqdır. | 0 | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər**<br>Müvafiq fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada ixtisaslaşmadan asılı olaraq müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında əksini tapır. | | 18 |
| 13 | **Destinasiya menecmenti**<br>Fənnin məzmunu turizm destinasiya anlayışını, onun idarəetmə modellərini və strateji inkişaf istiqamətlərini öyrənir. Fənn çərçivəsində turizm destinasiya sisteminin əsas elementləri – resurslar, infrastruktur, xidmətlər, maraqlı tərəflər (dövlət qurumları, yerli icmalar, turizm şirkətləri və s.) və onların qarşılıqlı əlaqəsi təhlil olunur.<br>Dərslərdə destinasiya planlaşdırılması, brendinq və imic formalaşdırılması, marketinq strategiyaları, keyfiyyət standartlarının tətbiqi, turist axınlarının idarə edilməsi, rəqabətliliyin artırılması və dayanıqlı inkişaf prinsipləri geniş şəkildə izah edilir.<br>Fənn həmçinin rəqəmsallaşma dövründə destinasiya menecmentinin yeni trendləri — onlayn platformalar, sosial media, süni intellekt və analitik məlumatlardan istifadə vasitəsilə effektiv idarəetmə üsullarını da əhatə edir.<br>Fənnin əsas məqsədi magistrantlarda turizm destinasiyalarının idarə olunması, planlaşdırılması və inkişaf etdirilməsi sahəsində nəzəri biliklər və praktik bacarıqlar formalaşdırmaqdır.<br><br>**Turizmdə nəqliyyat xidmətləri**<br>Fənnin məzmunu turizm sənayesinin əsas tərkib hissələrindən biri olan nəqliyyat sisteminin funksiyalarını, strukturu və inkişaf istiqamətlərini öyrənir. Fənn çərçivəsində turizmdə istifadə olunan əsas nəqliyyat növləri (hava, | 0 | 6 |

| | | | |
|---|---|---|---|
| | dəmir yolu, su və avtomobil nəqliyyatı), onların üstünlükləri, xidmət keyfiyyətinə təsir edən amillər və logistik idarəetmə prinsipləri təhlil edilir.<br>Dərslərdə turizm marşrutlarının planlaşdırılması, beynəlxalq və daxili daşımaların təşkili, nəqliyyat infrastrukturunun turizm inkişafına təsiri, turizmda mobillik, təhlükəsizlik və ekoloji dayanıqlılıq məsələləri öyrənilir.<br>Fənn həmçinin rəqəmsal texnologiyaların nəqliyyat xidmətlərində tətbiqi — onlayn rezervasiya sistemləri, bilet satışı platformaları, ağıllı nəqliyyat sistemləri və müştəri təcrübəsinin rəqəmsallaşdırılması kimi mövzuları da əhatə edir.<br>Fənnin əsas məqsədi magistrantlarda turizm sektorunda nəqliyyat xidmətlərinin təşkili və idarə olunması sahəsində nəzəri biliklər və praktik bacarıqlar formalaşdırmaqdır. | | |
| 14 | **Turizm məhsullarının hazırlanması**<br>Fənnin məzmunu turizm sənayesində rəqabətədavamlı və bazar yönümlü məhsulların yaradılması, inkişaf etdirilməsi və idarə olunması proseslərini öyrənir. Fənn çərçivəsində turizm məhsulunun anlayışı, strukturu, tərkib elementləri, istehsal və satış mərhələləri, hədəf bazarın seçilməsi və bazar tələbinə uyğunlaşdırma prinsipləri təhlil olunur.<br>Dərslərdə turizm məhsullarının növləri (mədəni, ekoturizm, sağlamlıq, biznes, kənd turizmi və s.), onların formalaşdırılmasında innovativ və rəqəmsal yanaşmalar, brendin yaradılması, qiymət siyasəti, marketinq strategiyaları və xidmət keyfiyyətinin idarə edilməsi məsələləri öyrənilir.<br>Fənn həmçinin turizm məhsullarının beynəlxalq standartlara uyğunlaşdırılması, müştəri yönümlü yanaşmaların tətbiqi, və dayanıqlı inkişaf prinsiplərinin məhsulun dizaynına inteqrasiyasını da əhatə edir.<br>Fənnin əsas məqsədi magistrantlarda turizm məhsullarının yaradılması, idarə olunması və bazarda uğurlu mövqeləndirilməsi üzrə nəzəri biliklər və praktik bacarıqlar formalaşdırmaqdır.<br><br>**Turizm xidmətləri bazarı və innovasiyalar**<br>Fənnin məzmunuturizm sənayesində bazar münasibətlərinin formalaşması, xidmət təklifinin strukturu, tələbin xüsusiyyətləri və innovativ inkişaf meyillərini öyrənir. Fənn çərçivəsində turizm xidmətləri bazarının iqtisadi mexanizmləri, rəqabət mühiti, istehlakçı davranışları, bazar seqmentasiyası və qiymət siyasəti təhlil olunur.<br>Dərslərdə həmçinin innovasiyaların turizm sektoruna təsiri – rəqəmsal transformasiya, süni intellekt, “smart turizm” texnologiyaları, elektron xidmətlər, startap təşəbbüsləri və davamlı inkişaf yönümlü yeniliklər geniş şəkildə araşdırılır.<br>Fənn turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, yeni turizm məhsullarının bazara çıxarılması, onlayn marketinq və kommunikasiya kanallarının tətbiqi kimi müasir idarəetmə yanaşmalarını da əhatə edir.<br>Fənnin əsas məqsədi magistrantlarda turizm xidmətləri bazarının fəaliyyət prinsipləri, rəqabət mexanizmləri və innovativ inkişaf istiqamətləri barədə nəzəri biliklər və praktik bacarıqlar formalaşdırmaqdır. | 0 | 6 |
| 15 | **Alternativ turizm növləri**<br>Fənnin məzmunu kütləvi turizmdən fərqli olaraq ekoloji, mədəni, sosial və iqtisadi baxımdan daha dayanıqlı, fərdiləşdirilmiş və yerli icmalara yönəlmiş turizm formalarını öyrənir.<br>Fənn çərçivəsində ekoturizm, kənd turizmi, aqroturizm, sağlamlıq və spa turizmi, macəra turizmi, mədəni irs turizmi, dini turizm, etnoturizm və digər alternativ turizm növlərinin mahiyyəti, xüsusiyyətləri və inkişaf potensialı təhlil olunur.<br>Dərslərdə alternativ turizm fəaliyyətlərinin planlaşdırılması, resursların idarə edilməsi, turist marşrutlarının formalaşdırılması, dayanıqlılıq prinsiplərinin tətbiqi, həmçinin bu növlərin regional iqtisadi inkişafa və yerli əhalinin rifahına təsiri geniş şəkildə araşdırılır. | 0 | 6 |

| | | | |
|---|---|---|---|
| | Fənn həmçinin innovasiyaların, rəqəmsal texnologiyaların və startap təşəbbüslərinin alternativ turizm növlərinin inkişafında rolunu da əhatə edir Fənnin əsas məqsədi magistrantlarda alternativ turizm növlərinin nəzəri əsasları, inkişaf mexanizmləri və idarəetmə prinsipləri haqqında bilik və bacarıqlar formalaşdırmaq, dayanıqlı və region yönümlü turizm fəaliyyətlərini planlaşdırmaq qabiliyyətini inkişaf etdirməkdir.<br><br>**Ekoloji turizm**<br>Fənnin məzmunu turizmin ekoloji cəhətdən məsuliyyətli forması kimi təbiətin qorunması, yerli icmaların rifahının artırılması və dayanıqlı inkişaf məqsədlərinə xidmət edən prinsipləri öyrənir.<br>Fənn çərçivəsində ekoturizmin mahiyyəti, prinsipləri, növləri, idarəetmə mexanizmləri və beynəlxalq təcrübəsi təhlil edilir. Təbiətə minimal təsir göstərən turizm fəaliyyətlərinin planlaşdırılması, təbii parkların, qoruqların və qorunan ərazilərin turizm potensialının qiymətləndirilməsi, ekoloji təhsilin və ekoməhsulların inkişafı məsələləri öyrənilir.<br>Dərslərdə həmçinin ekoturizmin iqtisadi və sosial faydaları, ekosistemlərin qorunması, iqlim dəyişiklikləri kontekstində ekoturizmin rolu və innovativ texnologiyaların (rəqəmsal xəritələşdirmə, smart turizm tətbiqləri) ekoloji idarəetmədə istifadəsi mövzuları araşdırılır.<br>Fənnin əsas məqsədi magistrantlarda ekoturizmin dayanıqlı inkişaf modelində rolunu, onun idarəetmə prinsiplərini və praktiki tətbiq üsullarını anlamaq, ekoturizm layihələrinin hazırlanması və həyata keçirilməsi üzrə bilik və bacarıqlar formalaşdırmaqdır. | | |
| | **Təcrübə** | | |
| 16 | **Elmi-pedaqoji təcrübə** | 6 | 6 |
| 17 | **Elmi tədqiqat təcrübəsi** | 0 | 6 |
| | **Dissertasiya işi** | | |
| 18 | **Magistrlik dissertasiyası**[6] | 0 | 18 |
| | **CƏMİ** | **90** | **120** |

[1] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.
[2] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanmayan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[3] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir və müvafiq ixtisaslaşma üzrə qəbul olan təhsilalan üçün məcburi xarakter daşıyır. Bu bölmədə minimum 4 fənn olmalıdır.

[4] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Sözügedən fənlər müəyyən edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.

[5] Bu təcrübə növü magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[6] Magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslar (ixtisaslaşmalar) üçün nəzərdə tutulmuşdur. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

**4.1.** Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

**4.2.** İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

**4.3.** İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

**4.4.** Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

**5.1.** Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- professor-müəllim və tədris köməkçi heyəti;
- zəruri avadanlıqla təchiz olunmuş auditoriya
- kompüter otağı və internetdən istifadə imkanları;
- elmi-tədris laboratoriyası;
- təcrübələrin keçirilməsi üçün baza müəssisələri;
- elmi kitabxana;
- akademik və peşəkar elektron məlumat bazalarına çıxış imkanı.

**5.2.** Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur, elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər;

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**7004005 – İqtisadiyyat proqramı, Turizmin iqtisadiyyatı ixtisaslaşması üzrə** məzunlar dövlət və özəl sektorda aşağıdakı peşələrdə işləyə biləcəklər:

- Turizm iqtisadiyyatı üzrə analitik/məsləhətçi;
- Planlaşdırma və təminat şöbə/departament müdiri;
- İxtisası/ixtisaslaşması üzrə müəllim/elmi işçi və s.

**6.1.** Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir;

**6.2.** Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər;

**6.3.** Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

Əlavə 1

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə**

**təlim nəticələri**

**7004005 - İqtisadiyyat** ixtisasının **Turizmin iqtisadiyyatı** ***ixtisaslaşması*** **üzrə** ***proqramın təlim nəticələri*** aşağıdakılardır:

| **Turizmin iqtisadiyyatı ixtisaslaşması üzrə proqramın təlim nəticələri (PTN)** |
|---|
| 1. Dayanıqlı turizm strategiyası formalaşdıra bilir |
| 2. Turizmdə rəqəmsal texnologiyaların tətbiqinə nəzarət edə bilir |
| 3. Turizm resurslarından səmərəli istifadə vəziyyətini qiymətləndirir |
| 4. Turizmdə dəyişiklikləri idarə edə bilir |
| 5. Turizmin sosial-iqtisadi təsirlərini qiymətləndirə bilir |
| 6. Turizm göstəricilərinin təhlili əsasında siyasət tədbirləri təklif edə bilir |

Əlavə 2

**FƏNLƏR ÜZRƏ FƏNN TƏLİMİ NƏTİCƏLƏRİ (FTN)**

**MƏCBURİ FƏNNLƏR ÜZRƏ**

| **"Tədqiqat metodları"fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| **FTN 2.** Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| **FTN 3.** Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| **FTN 4.** Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| **FTN 5.** Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| **FTN 6.** Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq ede biləcək. |

| **"Akademik yazı və etika" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| **FTN 2.** Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| **FTN 3.** Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən \| (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |

| |
|---|
| **FTN 4.** Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| **FTN 5.** Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| **FTN 6.** Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| **"Tədqiqat analitikası" fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. FTN 2. Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| **FTN 3.** Ferqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| **FTN 4**. Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| **FTN 5.** Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| **FTN 6.** Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |
| **"Elmi-pedaqoji təcrübə" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Ixtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| **FTN 2.** Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| **FTN 3.** Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| **FTN 4**. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından \| (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| **FTN 5.** Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| **FTN 6.** Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |
| **"Elmi-tədqiqat təcrübəsi" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Ixtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd və vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| **FTN 2**. Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhlil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| **FTN 3.** Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |

| |
|---|
| **FTN 4.** Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| **FTN 5.** Teədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| **FTN 6**. Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |
| **"Magistrlik dissertasiyası" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1**. Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| **FTN 2**. Ixtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| **FTN 3**. Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| **FTN 4.** Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və |
| innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| **FTN 5.** Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| **FTN 6.** Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

**Turizmin iqtisadiyyatı: nəzəriyyə və tətbiqlər**

| |
|---|
| **FTN 1.** Turizmin iqtisadi mahiyyətini və strukturunu nəzəri və praktiki aspektlərdən təhlil edə bilir; |
| **FTN 2.** Turizmin makro və mikroiqtisadi təsirlərini (ÜDM-yə töhfəsi, məşğulluq, regionların inkişafı, gəlir bölgüsü və s.) analiz edir və qiymətləndirir; |
| **FTN 3**. Dövlət turizm siyasətinin iqtisadi əsaslarını və onun effektivliyini qiymətləndirir, milli və beynəlxalq səviyyədə müqayisəli təhlillər apara bilir; |
| **FTN** 4. Turizm investisiyalarının və layihələrinin iqtisadi əsaslandırılmasını həyata keçirə bilir, risk və gəlir analizlərini aparır; |
| **FTN 5**. Elmi-tədqiqat metodlarını tətbiq etməklə turizm iqtisadiyyatı sahəsində analitik və tənqidi düşüncə nümayiş etdirir; |
| **FTN 6.** Müstəqil şəkildə tədqiqat işi planlaşdırmaq, aparmaq və nəticələrini təqdim etmək bacarığına- həm nəzəri baxımdan, həm də praktiki tətbiqlərlə malik olur. |

**Turizmin planlaşdırılması və turizm siyasəti**

| |
|---|
| **FTN 1.** Turizmin planlaşdırılması və siyasəti ilə bağlı əsas nəzəri yanaşmaları və konsepsiyaları izah edə bilir; |
| **FTN 2.** Turizmin planlaşdırılması prosesinin mərhələlərini (məlumatların toplanması, məqsədlərin müəyyən edilməsi, strategiyaların seçilməsi və s.) sistemli şəkildə analiz edir; |
| **FTN 3.** Milli və regional səviyyədə turizm planlaşdırmasının iqtisadi və sosial aspektlərini qiymətləndirə |

| |
|---|
| bilir; |
| **FTN** 4. Turizm siyasətinin formalaşdırılması və həyata keçirilməsi proseslərini təhlil edir, müxtəlif ölkələrin təcrübələrini müqayisə edə bilir; |
| **FTN 5.** Azərbaycan Respublikasının turizm siyasətini və inkişaf planlarını analitik yanaşma ilə təhlil edir, müasir çağırışlara uyğun olaraq təkliflər irəli sürür; |
| **FTN 6.** Müstəqil şəkildə turizm planlaşdırılması və siyasəti üzrə elmi-tədqiqat işi aparmaq, nəticələrini əsaslandırmaq və təqdim etmək bacarığına malik olur. |

**Turizm marketinqi**

| |
|---|
| **FTN** 1. Turizm marketinqinin nəzəri əsaslarını və anlayışlarını (məhsul, qiymət, təşviqat, satış kanalları və s.) dərindən izah edə bilir; |
| **FTN** 2. Turizm xidmətlərinin spesifik xüsusiyyətlərinə uyğun marketinq strategiyalarını təhlil və tətbiq edə bilir; |
| **FTN** 3. Turizm bazarlarının seqmentasiyası, hədəf bazarın seçilməsi və mövqe tutma (positioning) strategiyalarını müəyyən edir və əsaslandırır; |
| **FTN** 4. Turizm müəssisələrinin və destinasiya idarəetmə təşkilatlarının (DMO) marketinq fəaliyyətlərini analiz edir və təkmilləşdirmə yolları təklif edir; |
| **FTN** 5. Turizm məhsulunun yaradılması, paketləşdirilməsi və bazara çıxarılması prosesini planlaşdırma və həyata keçirmə bacarığına malik olur; |
| **FTN** 6. Marketinq tədqiqat metodlarından istifadə edərək turizm bazarlarını araşdırmaq və müvafiq qərarlar qəbul etmək bacarığı qazanır; |
| **FTN** 7. Müstəqil şəkildə turizm marketinqi sahəsində elmi-tədqiqat işi aparmaq, nəticələri əsaslandırmaq və tətbiq təklifləri vermək bacarığına yiyələnir. |

**Turizmdə investisiyalar**

| |
|---|
| **FTN 1.** Turizm sektorunda investisiya fəaliyyətinin iqtisadi mahiyyətini və növlərini (dövlət, özəl, birgə investisiyalar və s.) izah edə bilir; |
| **FTN 2.** Turizm infrastrukturu və obyektlərinin inkişafında investisiya axınlarının rolu və təsirini analiz edir; |
| **FTN 3.** Xarici investisiyaların turizm sektoruna cəlbi üçün iqtisadi və institusional mexanizmləri təhlil edir; |
| **FTN 4.** Regionlar üzrə turizm investisiya imkanlarını təhlil edir, prioritet sahələri müəyyənləşdirir və əsaslandırılmış təkliflər verir; |
| **FTN 5.** Azərbaycan və dünya ölkələrinin turizm sektorunda uğurlu investisiya təcrübələrini müqayisəli təhlil edir və nəticə çıxarır; |
| **FTN 6.** Turizmdə investisiyalar üzrə tədqiqat layihələri hazırlamaq, təhlil aparmaq və investisiya qərarlarını əsaslandırmaq bacarığına yiyələnir. |

**Turizm və iqtisadi artım, inkişaf**

| |
|---|
| **FTN 1.** Turizm ilə iqtisadi artım və inkişaf arasındakı qarşılıqlı əlaqəni nəzəri əsaslarla izah edə bilir; |
| **FTN 2.** Turizmin iqtisadi artıma təsirini ölçmək üçün istifadə olunan əsas göstəriciləri (ÜDM, məşğulluq, investisiya, idxal/ixrac balansı və s.) təhlil edə bilir; |
| **FTN 3.** Turizm sektorunda iqtisadi artımın davamlılığı və balanslaşdırılmış regional inkişaf üçün strateji yanaşmaları müəyyən edir; |
| **FTN 4.** Sosial-iqtisadi inkişaf göstəriciləri ilə turizm fəaliyyətləri arasındakı əlaqəni qurur və bu sahədə analitik təhlil aparır; |
| **FTN 5.** Turizmin regionların iqtisadi inkişafında rolu və potensialını müəyyənləşdirir, real nümunələr |

| |
|---|
| əsasında qiymətləndirir; |
| **FTN 6.** Azərbaycanın turizm potensialını və onun iqtisadi artım üçün imkanlarını təhlil edir və strategiyalar təklif edir; |
| **FTN 7.** Müstəqil şəkildə turizm və iqtisadi inkişaf sahəsində elmi-tədqiqat işi aparmaq, nəticələri iqtisadi əsaslarla təqdim etmək bacarığına yiyələnir |

**Davamlı turizm strategiyaları**

| |
|---|
| **FTN 1.** Davamlı turizmin konsepsiyasını, əsas prinsiplərini və məqsədlərini izah edir; |
| **FTN 2.** Turizmin iqtisadi, ekoloji və sosial dayanıqlılıq aspektlərini kompleks şəkildə təhlil edir; |
| **FTN 3.** Müxtəlif turizm növləri üzrə (ekoturizm, kənd turizmi, mədəni turizm və s.) davamlılıq yanaşmalarını təhlil edir; |
| **FTN** 4. Turizmin ətraf mühitə, yerli icmalara və mədəni irsə təsirini qiymətləndirir və azaldıcı tədbirlər təklif edir; |
| **FTN 5.** Davamlı turizm siyasətləri üzrə beynəlxalq təşkilatların (UNWTO, UNEP, UNESCO və s.) sənədlərini və tövsiyələrini təhlil edir; |
| **FTN 6.** Regional və milli səviyyədə davamlı turizm inkişafı üzrə strategiyalar hazırlayır və real vəziyyətə uyğun təkliflər verir; |
| **FTN 7.** Davamlı turizm üzrə strateji qərarların hazırlanması üçün analitik və strateji düşünmə bacarıqlarına malik olur. |

**Beynəlxalq turizm və rəqabətlilik**

| |
|---|
| **FTN 1.** Beynəlxalq turizmin əsas anlayışlarını, inkişaf mərhələlərini və qlobal miqyasda iqtisadi rolunu izah edir; |
| **FTN 2.** Beynəlxalq turizm bazarının strukturunu, tendensiyalarını və dinamikasını təhlil edir; |
| **FTN 3.** Turizm sektorunda ölkələrarası rəqabət qabiliyyətini formalaşdıran amilləri müəyyən edir və qiymətləndirir; |
| **FTN 4.** Turizm üzrə beynəlxalq təşkilatların (UNWTO, OECD, WTTC və s.) siyasət və tövsiyələrini izah edir və təhlil edir; |
| **FTN 5.** Qlobal və regional turizm strategiyalarını müqayisəli şəkildə analiz edir və rəqabət mühitini dəyərləndirir; |
| **FTN 6.** Milli turizm sektorunun beynəlxalq bazarlarda rəqabət potensialını təhlil edir və inkişaf etdirilməsi üzrə tövsiyələr verir; |
| **FTN 7.** Beynəlxalq turizm bazarında rəqabət üstünlüklərinin yaradılması və qorunması üzrə strategiyalar hazırlamaq bacarığına malik olur. |

**Turizmdə rəqəmsal texnologiyalar**

| |
|---|
| **FTN 1.** Turizm sektorunda rəqəmsal texnologiyaların əsas növlərini və tətbiq sahələrini izah edir; |
| **FTN 2.** Rəqəmsal marketinq, onlayn rezervasiya sistemləri və sosial media platformalarının turizmə təsirini analiz edir; |
| **FTN 3.** Big Data, süni intellekt, virtual və artırılmış reallıq kimi innovativ texnologiyaların turizm xidmətlərində istifadəsini qiymətləndirir; |
| **FTN 4.** Rəqəmsal texnologiyalar əsasında turizm məhsullarının inkişafı və fərdiləşdirilməsi strategiyalarını hazırlayır; |
| **FTN 5.** Turizmdə rəqəmsal transformasiya proseslərinin iqtisadi təsirlərini qiymətləndirir; |
| **FTN 6.** Rəqəmsal texnologiyalar vasitəsilə turizm fəaliyyətlərinin dayanıqlığını artırmaq üçün innovativ həllər təklif edir; |

| |
|---|
| **FTN 7.** Turizmdə rəqəmsal texnologiyalar mövzusunda müstəqil tədqiqatlar aparmaq və strateji tövsiyələr hazırlamaq bacarığına sahib olur. |

**Turizm resurslarının idarə edilməsi**

| |
|---|
| **FTN 1.** Turizm resurslarının növlərini (təbii, mədəni, tarixi və s.) və onların iqtisadi əhəmiyyətini dərindən izah edir; |
| **FTN 2.** Turizm resurslarının qiymətləndirilməsi və inventarlaşdırılması metodlarını tətbiq edir; |
| **FTN 3.** Turizm resurslarının iqtisadi potensialını artırmaq üçün innovativ idarəetmə yanaşmalarını mənimsəyir; |
| **FTN 4.** Regionlarda turizm resurslarının iqtisadi inkişafla əlaqələndirilməsi üçün modellər hazırlayır; |
| **FTN 5.** Azərbaycanın turizm resurslarının idarə edilməsində mövcud vəziyyəti təhlil edir, inkişaf perspektivlərini müəyyən edir; |
| **FTN 6.** Turizm resurslarının idarə edilməsi sahəsində müstəqil tədqiqatlar aparmaq, elmi əsaslı qərarlar qəbul etmək bacarığına malik olur. |

Əlavə 3

**"Turizmin iqtisadiyyatı" ixtisaslaşması üzrə PTN-lərin tədris fəaliyyətləri ilə uyğunluq matrisi**

**Tədqiqat yönümlü fənlər üzrə**

| Tədris fəaliyyətinin (fənnin) adı | PTN 1.Dayanıqlı turizm strategiyası formalaşdıra bilir | PTN 2.Turizmdə rəqəmsal texnologiyaların tətbiqinə nəzarət edə bilir | PTN 3.Turizm resurslarından səmərəli istifadə vəziyyətini qiymətləndirir | PTN 4.Turizmdə dəyişiklikləri idarə edə bilir | PTN 5.Turizmin sosial-iqtisadi təsirlərini qiymətləndirə bilir | PTN 6.Turizm göstəricilərinin təhlili əsasında siyasət tədbirləri təklif edə bilir |
|---|---|---|---|---|---|---|
| Tədqiqat metodları | X | | X | X | X | X |
| Akademik yazı və etika | | | | | X | X |
| Layihələrin idarə olunması | X | X | | X | | |
| Elmi-pedaqoji təcrübə | | | | X | X | |
| Elmi tədqiqat təcrübəsi | X | X | X | X | X | X |
| Magistrlik dissertasiyası | X | X | X | X | X | X |

---

- **Tədqiqat metodları** fənni bütün analitik və elmi tədqiqat bacarıqlarının əsasını təşkil edir, bu səbəbdən əksər PTN-lərlə uyğun gəlir.
- **Akademik yazı və etika** elmi hesabatların və siyasət sənədlərinin hazırlanması, həmçinin etik standartlara əməl bacarığını formalaşdırır.
- **Layihələrin idarə olunması** strateji planlaşdırma və dəyişikliklərin idarə edilməsi (PTN 1, 2, 4) ilə sıx əlaqəlidir.

- **Elmi-pedaqoji təcrübə** dəyişikliklərin idarə olunması və sosial-iqtisadi təhlil bacarıqlarını möhkəmləndirir.
- **Elmi tədqiqat təcrübəsi** və **Magistrlik dissertasiyası** bütün təlim nəticələrinin praktik tətbiqini təmin edir.

### Məcburi fənlər üzrə

| Tədris fəaliyyətinin (fənnin) adı | PTN 1.Dayanıqlı turizm strategiyası formalaşdıra bilir | PTN 2.Turizmdə rəqəmsal texnologiyaların tətbiqinə nəzarət edə bilir | PTN 3.Turizm resurslarından səmərəli istifadə vəziyyətini qiymətləndirir | PTN 4.Turizmdə dəyişiklikləri idarə edə bilir | PTN 5.Turizmin sosial-iqtisadi təsirlərini qiymətləndirə bilir | PTN 6.Turizm göstəricilərinin təhlili əsasında siyasət tədbirləri təklif edə bilir |
|---|---|---|---|---|---|---|
| Turizmin iqtisadiyyatı: nəzəriyyə və tətbiqlər | X | | X | X | X | X |
| Turizm planlaşdırılması və turizm siyasəti | X | | X | X | X | X |
| Turizm və iqtisadi artım, inkişaf | | | | X | X | X |
| Turizmdə investisiyalar | | | | X | X | X |
| Destinasiya menecmenti | X | | X | X | | |
| Beynəlxalq turizm və rəqabətlilik | X | | | X | X | X |
| Davamlı turizm strategiyaları | X | | X | X | X | X |
| Turizm marketinqi | X | | | X | | |
| Alternativ turizm növləri | X | | X | | | |
| Ekoloji turizm | X | | X | | X | |
| Turizm məhsullarının hazırlanması | X | | X | X | | |
| Turizm xidmətləri bazarı | | | | X | X | |
| Turizm resurslarının idarə edilməsi | X | | X | | | X |
| Turizmdə rəqəmsal texnologiyalar | | X | | X | | |

---

- **PTN 1 (Dayanıqlı turizm strategiyası)** – “Davamlı turizm strategiyaları”, “Turizm planlaşdırılması”, “Destinasiya menecmenti” kimi fənlərlə sıx bağlıdır.
- **PTN 2 (Rəqəmsal texnologiyalar)** – “Turizmdə rəqəmsal texnologiyalar” fənnində əsasən əhatə olunur.

- **PTN 3 (Resurslardan səmərəli istifadə)** – “Turizm resurslarının idarə edilməsi”, “Ekoloji turizm”, “Alternativ turizm növləri” fənlərində əsasən formalaşır.
- **PTN 4 (Dəyişikliklərin idarə olunması)** – idarəetmə və strateji qərarvermə ilə bağlı bütün fənlərlə əlaqəlidir.
- **PTN 5 (Sosial-iqtisadi təsirlərin qiymətləndirilməsi)** – iqtisadi məzmunlu fənlərdə, xüsusilə “Turizmin iqtisadiyyatı”, “Turizm və iqtisadi artım”, “Turizmdə investisiyalar”da inkişaf etdirilir.
- **PTN 6 (Siyasət tədbirlərinin təklifi)** – “Turizm siyasəti”, “Beynəlxalq turizm və rəqabətlilik” və “Turizmin iqtisadiyyatı” fənlərində güclü şəkildə tətbiq olunur

**Razılaşdırıldı:**

**Tədris şöbəsinin müdiri**
**________________f-r.ü.f.d.Leyla Ağamalıyeva**

**Beynəlxalq magistratura və Doktorantuara Mərkəzinin direktoru**

**______________t.ü.f.d.,dos.Nüşabə Quliyeva**

**Maliyyə və mühasibat kaferasının müdiri**

**________________i.e.n.,dos. Nəriman Böyükkişi**